# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.


Qəmərvan kəndi.




Daşca kəndi.


Çarxana kəndi.


Bayramkoxalı kəndi.


Bunud kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin noyabr və dekabr aylarında səyyar qəbullar Daşca, Qəmərvan, Çarxana, Bayramkoxalı, Bunud və İmamlı kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.


İmamlı kəndi.

**"Qəbələ səsi".**
**Fotolar S. Umuyevindir.**

# Vətəndaş qəbulları



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən 5, 19 dekabr tarixlərində növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbul zamanı Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri fərdi şəkildə dinlənilib. Müraciətlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Ürəklərdə əbədi iz salan insan

Qəbələ rayon Mədəniyyət Mərkəzində Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar "Ürəklərdə əbədi iz salan insan" adlı tədbir keçirilmişdir. Tədbirdə ilk öncə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, və xalqın rifahının



yüksəldilməsi, ölkəmizin siyasi, sosial-iqtisadi və mədəni inkişafının əsas istiqamətlərinin inkişaf etdirməsindən və dünya miqyasında tanıtmasından bəhs etmiş, dahi liderin Azərbaycan Mədəniyyətində rolu haqqında ətraflı söz açmışlar. Möhkəm təməl üzərində qurulan müasir Azərbaycanın qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir və qazanılan uğurlar Ulu Öndərin ideyalarının davamlılığının bariz göstəricisi olduğunu vurğulamışlar. Sonda Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunmuşdur.

# 2025-ci ili uğurla başa vurduq



2025-ci il ərzində Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbi öz işlərini uğurla həyata keçirmişdir. Belə ki, bizim idmançılarımızın və müəllimlərimizin əksəriyyəti Beynəlxalq və Respublika yarışlarında iştirak etmiş və qalib yerləri qazanmışlar.

19 yanvar tarixində başa çatan şahmat üzrə 21-ci Beynəlxalq Həlletmə yarışlarında müəllimimiz, Beynəlxalq İdman ustası Araz Alməmmədov I yeri, şahmatçımız Samir Alməmmədov II yeri qazanmışlar.

12 - 13 mart tarixlərində Gənclər və İdman Nazirliyi və Güləş Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən sərbəst və Yunan-Roma güləşi üzrə Respublika Birinciliyi yarışlarında 3 nəfər idmançımız-Rəşad Veysəlov 80 kq çəki dərəcəsində I yeri, Tərlan Ağaməmmədov 48 kq çəki dərəcəsində I yeri, İsmayıl Kərimov 71 kq çəki dərəcəsində III yeri qazanmışlar.

5 - 6 aprel tarixlərində Sumqayıt şəhərində şahmat məsələlərinin əyani həlli üzrə 44-cü Azərbaycan Çempionatında məktəbimizin məşqçi-müəllimi Araz Alməmmədov I yeri tutmuşdur.

10 - 18 aprel tarixləri arasında "Qəbələ İdman Paytaxtı 2025" adlı silsilə tədbirlərdə və tədbirlərin təşkilində yaxından iştirak etmişik.

15 - 18 aprel tarixlərində Gənclər və İdman Nazirliyi və Güləş Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən sərbəst güləş üzrə Respublika birinciliyi yarışlarında 2 nəfər idmançımız- Rəşad Veysəlov 80 kq çəki dərəcəsində III yeri və Rəsul Məmmədov 45 kq çəki dərəcəsində III yeri tutmuşlar.

May ayında H.Əliyevin anadan olmasının 102 illiyinə həsr olunmuş müxtəlif tədbirlər - voleybol, futbol, şahmat, stolüstü tennis və digər yarışlar təşkil etmişik.

12 - 16 may 2025-ci il tarixlərində Şəki şəhərində keçirilən voleybol üzrə zona yarışlarında məşqçi-müəllimlərimiz Fizuli Əmiraslanov və Nazim Valehovun rəhbərlik etdikləri komandamız III yeri qazanmışdır.

22 - 23 may tarixlərində Belorusiyanın Qrodnıy şəhərində keçirilən Beynəlxalq turnirdə ölkəmizi Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin sərbəst güləş komandası təmsil etmişdir. Bu yarışlarda İsmayıl Əlyarov 65 kq çəki dərəcəsində, Əhməd Əhmədli isə 70 kq çəki dərəcəsində I yerləri əldə etmişlər.

31 may - 1 iyun tarixlərində 28 May Respublika Gününə həsr olunmuş sərbəst güləş üzrə Respublika turnirində 5 nəfər idmançımız-Abdulla Tahirov 52 kq çəki dərəcəsində I yeri, İsmayıl Kərimov 75 kq çəki dərəcəsində II yeri, Harun İzaxarov 41 kq çəki dərəcəsində II yeri, Saleh Tahirov 32 kq çəki dərəcəsində III yeri, Səfər Səfərli 75 kq çəki dərəcəsində III yeri tutmuşlar.

İdmançımız 28 iyul-03 avqust 2025-ci il tarixlərində Yunanıstanın Afina şəhərində keçirilən Sərbəst güləş üzrə Dünya Çempionatında 80 kq çəki dərəcəsində V yeri tutmuşdur.

8 - 11 noyabr tarixlərində Gəncə şəhərində keçirilən 8 noyabr Zəfər gününə həsr olunmuş sərbəst güləş üzrə Respublika turnirində 2 nəfər idmançımız - Rəsul Məmmədov 45 kq çəki dərəcəsində I yeri, Alı Tagıyev 45 kq çəki dərəcəsində III yeri tutmuşlar.

Biz çalışacağıq ki, 2026-cı ildə də işlərimizi uğurla davam etdirək.

**Ədalət ƏLİYEV,**
**Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru.**